*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 25-31* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.25*

# Köhnə "yeni" etno-poetik kompleks: şairlik və qəhrəmanlıq

**Yaşar Qasımbəyli**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: yashargasimov@mail.ru

**Annotasiya.** Məqalədə ötən əsrin 60-70-ci illərində Azərbaycan poeziyasında baş verən ciddi ideya-estetik yenilənmədən bəhs edilir. Ədəbiyyat meydanına yenicə qədəm qoymuş gənc qələm sahiblərini yeni ictimai-siyasi və bədii-estetik davranışlar mühitində sənətkarın necə olması və hakimiyyət-sənət, eyni zamanda sənət və xalq arasındakı keyfiyyətcə ciddi surətdə dəyişmiş və təzələnmiş münasibətlərin mahiyyəti dərindən düşündürürdü. Həmin dövrdə poetik prosesin öncülləri olan B.Vahabzadə, Ə.Kərim, M.Araz, X.R.Ulutürk, T.Bayram, F.Qoca və başqalarının erkən yaradıcılığında yeni sənətkar estetik mövqeyini formalaşdırmaq meyillərinin bariz surətdə nəzərə çarpdığını müşahidə edirik. Araşdırmada təhlil mərkəzinə çıxarılmış şeirlərdə gənc qələm sahiblərinin bədii-estetik axtarışlarının istiqamətindən və məzmunundan söz açılır. Xüsusən, Ə.Kərimin Səməd Vurğun və Üzeyir Hacıbəyov haqqındakı, T.Bayramın klassik Azərbaycan şairlərinin və X.R.Ulutürkün dahi Seyid İmadəddin Nəsiminin ictimai-ədəbi cəsarətindən bəhs edən məşhur əsərləri müqayisəli şəkildə nəzərdən keçirilir, gənc altmışıncıların bu sahədəki poetik kəşfləri ümumiləşdirilir.
**Açar sözlər:** Altmışıncıların yeni sənət və sənətkar konsepsiyası, Ə.Kərim, M.Araz, X.R.Ulutürk, T.Bayram, F.Qoca

**Məqalə tarixçəsi:** göndərilib – 02.07.2024; qəbul edilib – 15.07.2024

# Old "new" ethno-poetic complex: poetry and heroism

**Yashar Gasimbeyli**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: yashargasimov@mail.ru

**Abstract.** In the article is dealt with the ideological-aesthetic renovation happened in Azerbaijani poetry during 60-70s of last century. Young pen masters who had just entered the field of literature thought about how an artist should be in the environment of new socio-political and artistic-aesthetic behaviors, as well as the essence of the a seriously changed and renewed relations between art and the people. We observe the trends in forming a new artistic aesthetic position in the creativity of B.Vahabzade, A.Karim, M.Araz, Kh.R.Uluturk, T.Bayram, F.Goja and others, who were pioneers of the poetic process at that time. In the research is dealt with the directions and contents of artistic-aesthetic researches of young pen masters in the analyzed poems. Especially the famous works by A.Karim on Samad Vurgun and Uzeyir Hajibeyov, T.Bayram on classical poets, Kh.R.Uluturk on social and literary courage of Seyid Imadaddin Nasimi is reviewed comparatively, poetic discoveries young sixties in this field is generalized.
**Keywords:** new art and master concept of sixties, A.Karim, M.Araz, Kh.R.Uluturk, T.Bayram, F.Goja

**Article history:** received – 02.07.2024; accepted − 15.07.2024

## Giriş / *Introduction*

“Şairlik – qəhrəmanlıqdır” düsturunun altmışıncılar poeziyasının baş xəttini müəyyənləşdirən təmayüllərdən birinə çevrilməsi prosesi onların bütün mənəvi-əxlaqi və bədii-fəlsəfi axtarışlarına öz möhürünü basmışdır. Döyüşkən şairlərimizin bu mövzudakı ilk qələm təcrübələrindən çıxan mühüm nəticələrdən biri ondan ibarətdir ki, həqiqi bədii yaradıcılıq qəhrəmanlıq fəaliyyətinə və aktına çevrilməli, ona bərabər olmalıdır. Əsl sənətkar isə bütün ömrü boyu qəhrəmanlar kimi yaşamalı, söz meydanında hünər və cəsarət göstərməyə hazır olmalıdır. Türk xalqlarının şifahi ədəbiyyatında, xüsusən, epik yaradıcılığında həmişə ozan və qəhrəmanın, aşıq və qəhrəmanın tarixən bir şəxsdə təcəssüm etməsi, çox vaxt ozan və qəhrəman arasındakı mənəvi-fiziki sərhədlərin və fərqlərin hiss olunmaması məhz bu etnofəlsəfi və əxlaqi görüşlərlə bağlıdır. Bütün qədim epik və tarixi türk bahadırları – Dədə Qorqud qəhrəmanları, Koroğlu və Goroğlular, Manas, Alpamış, Ural Batır, Koblandı Batır və başqaları, bir əlində qopuz, bir əlində qılınc tutmuş misilsiz qəhrəmanlar, sərkərdələrdir. Saz və qılıncın bu cür ayrılmazlığı, başqa sözlə, qılınc və qələmin əbədi birliyi türk xalqları tarixinin bütün mərhələlərindən keçərək çağımıza qədər gəlib çatmışdır.

## Əsas hissə / *Main Part*

Bu nöqteyi-nəzərdən Azərbaycan altmışıncılarının özlərindən əvvəlki ədəbi nəsillərə, xüsusən, Səməd Vurğun pleyadasına münasibəti həssas yanaşmanı və ciddi təhlili tələb edir. Bu şanlı pleyada böyük itkilər versə də, 60-cı illərə gəlib çıxa bilmiş, Böyük şairin əksər yaşıdları isə 60-70-ci illərin poetik prosesində fəal iştirak etmişdilər. Onların bir çoxları zamanın çevrilməsindən sonra söz azadlığının imkan verdiyi hüdudlar daxilində on illərdən bəri ürəklərində gəzdirdikləri kədəri də söyləməyə imkan tapmışdılar. A.Tvardovski, K.Simonov, N.Tixonov, İ.Selvinski, S.Marşak, Y.Smelyakov və başqaları stalinizmdən sonrakı dövrün aparıcı bədii gücləri idi. Azərbaycan ədəbiyyatında da təxminən belə bir vəziyyət nəzərə çarpırdı. Ustad şiarlərimiz R.Rza, S.Rüstəm, O.Sarıvəlli, M.Rahim, Ə.Cəmil, M.Dilbazi, N.Rəfibəyli və başqaları yeni bədii epoxanın da təkanverici qüvvələri idilər. Bu sırada təəssüf ki, böyük Səməd Vurğun yox idi. Amma fələyin amansız hökmü ilə öz doğma səfini erkən tərk etməli olmuş şair 60-cı illərin poetik prosesində hamıdan fəal iştirak edirdi. Xüsusən, gənc nəsil şairi həsrətlə xatırlayırdı. Təkcə Azərbaycanın gənc yazarları yox, Ukrayna və rus altmışıncıları da, Moldova və Belarusun, Qazaxıstan və Qırğızıstanın, Özbəkistan və Tacikistanın, Türkmənistan və Qaraqalpaqıstanın cavan şairləri S.Vurğunu öz doğma klassikləri qədər sevirdilər. Yalnız bir faktı xatırlatmaq kifayətdir: S.Vurğun haqqında ən çox yazılan sənətkardır. Sabiq imperiya məkanında bu cəhətdən onu heç kimlə müqayisə etmək olmaz. Təbii ki, Azərbaycanın söz və qələm sahiblərini ayrıca vurğulamağa lüzum yoxdur. Bizdə əlinə qələm alan hər kəs S.Vurğun haqqqında öz ürək sözlərini söyləmək istəyib. Belə bir populyarlıq sağlığında və ölümündən sonra biz tanıdığımız, bildiyimiz heç bir sənətkara nəsib olmayıb.

Altmışıncıların Səməd Vurğuna münasibəti isə ayrıca bir elmi problem kimi tədqiq edilməyə layiqdir. Burada biz elmi kontekstin tələb və imkanlarını nəzərə alaraq, rus və qardaş xalqlar şairlərinin deyil, təkcə Azərbaycan altmışıncılarının böyük sənətkara həsr etdiyi əsərləri təhlilə cəlb etməyi məqsədə müvafiq sayırıq. Bu nöqteyi-nəzərdən söyləməliyik ki, o dövrün bütün gənc qələm sahibləri böyük şairin obrazına müraciət etmişlər. Bu ənənənin öncüllərindən biri də altmışıncıların mənəvi lideri Əli Kərim idi. “Şeir gecəsi” (1954) ustad sənətkarın sağlığında yazılmış ən təsirli əsərlərdən biridir, desək, yanılmarıq: “Moskva... Bir salon... Şeir gecəsi... Bu gün neçə şair bu salondadır. Əzizdir şairin, şeirin səsi, Fikirlər ondadır, fikrim ondadır” [1, s.252]. Bu əsərdə son dərəcə romantik və könülləri coşduran situasiya qələmə alınıb. Cavan şair ürəkdən

sevdiyi ustadının çıxışına tamaşa edir. Arzularında süslədiyi, xəyallarında yaşatdığı varlığı müşahidə edir. Onun hər bir hərəkəti, duruşu, baxışı, səsi, təpədən-dırnağa bütün varlığı şeir-sənət vurğunu olan gəncdə məsum bir sevinc, bakirə bir iftixar oyadır: "Dikib çilçırağa qaynar gözünü, Saçları ağ bulud, özü dağ şair. Əlləri içinə alıb üzünü, Yenə xəyallarda, fikirlərdədir". Bu misra – obraz müəllifin bədii kəşfidir: "Saçları ağ bulud, özü dağ şair". Və gənc lirik qəhrəman da ulu şairə yüksək zirvələrə məftunluqla göz dikən kimi baxırdı. Səməd Vurğun, həqiqətən də Əli Kərim və yaşıdları üçün sevdikləri, arzuladıqları bir zirvə idi: "Bir az tərif edir Səmədi... Bu an... Sədrin sözlərini kəsərək birdən, Səməd yavaş-yavaş durur yerindən... Bu bir şairdirmi, yoxsa qəhrəman?". Altmışıncıların pərəstiş etdikləri və ürəklərində yaşatdıqları Səməd Vurğun obrazının ikinci mühüm cəhəti isə bu misrada əyaniləşib: "Bu bir şairdirmi, yoxsa qəhrəman?". Həqiqətən də gənc şairlər Səməd Vurğunu təkcə söz adamı kimi deyil, həm də qəhrəman kimi göylərə qaldırırdılar. Altmışıncılar Səməd Vurğun şəxsiyyətinə sadəcə maraq üçün müraciət etmirdilər. Onları ideal şair kompleksi dərindən düşündürürdü. Əsl şair necə olmalıdır? Onlar ədəbiyyatda və həyatda bu obrazı axtarırdılar. Arzu etdikləri şairə oxşamaq, öyündükləri sənətkar kimi olmaq istəyirdilər. Səməd Vurğun məhz belə bir möhtəşəm obraz idi: "Düyüb yumruğunu, açıb əlini, Vurğun söz deyirdi, könül yaxırdı. Şairlər unudub şairliyini, Bir oxucu kimi ona baxırdı" [1, s.253].

Gənc şairlərin idealı olan sənətkar ancaq yazı və söz qəhrəmanı olmamalı idi. Bu kifayət etmirdi. Məzlum bir millətin övladları şairə milli qürur mənbəyi və qəhrəman kimi baxmağa adət etmişdi. Əli Kərim və onun cavan zamandaşları da ideal seçdikləri şairləri məhz belə görmək istəyirdilər; Əhməd Cavad, Səməd Vurğun, Mikayıl Müşfiq, Rəsul Rza, Osman Sarıvəlli və başqalarını məhz belə təsəvvür edirdilər: "Çox şeir oxudu... Özü də necə, Qalalar fəth edən sərkərdə kimi. Onun sözlərinə sevindi gecə, Dedi ki, dinlərəm səhərə kimi. Neçə şair gördü bu sadə kürsü, Cavanlı-qocalı nə qədər oldu. Böyükdür, güclüdür Vurğunun sözü, Ona çox şair də bərabər oldu" [1, s.254]. Əli Kərimin şeir-sənət meyarı – Səməd Vurğundur. Böyüklük ölçüsü – Səməd Vurğundur. Şairlər ordusunun sərkərdəsi – Səməd Vurğundur. Səməd Vurğunun əbədi məskəni – şeirin, sənətin zirvəsindədir!

*Bura şair gəlsin qoy axın-axın,*
*O, ən böyüklərin cərgəsindədir.*
*Vurğunu görməkçün ucaya baxın,*
*O, şeirin, sənətin zirvəsindədir.* [1, s.254]

Altmışıncıların Səməd Vurğuna məhəbbətini duymaq üçün Əli Kərimin dahi sənətkarın vaxtsız vəfatına həsr etdiyi şeirini də gözdən keçirmək lazımdır. Böyük şairin amansız ölümü bütün Azərbaycanı, bəlkə də hamıdan çox saysız-hesabsız şagirdlərini sarsıtmışdı. "Ölüm, sevinmə çox..." (1956) şeirində Səməd Vurğunun özünün dahi Üzeyir Hacıbəylinin ölümünə həsr etdiyi "Ölüm sevinməsin qoy..." şeirinin də ruhu sezilməkdədir. Səməd Vurğun Üzeyir bəyin vaxtsız itkisinə yas tutduğu kimi, Əli Kərim də xalqımızın Səməd Vurğunu itirməsinə yanıb-yaxılır. Bu şeir, həqiqətən də müqəddəs bir yanğı ilə və ölümə sonsuz qəzəblə qələmə alınıb:

*Ölüm, şöhrətinmi azalardı de,*
*Tanışdı onsuz da cahana adın;*
*Sənə nə olardı , nə olardı de,*
*Belə bir insana əl vurmasaydın.* [1, s.251]

Burada yeri gəlmişkən, Ə.Kərimin ustad S.Vurğuna münasibətindən söz açarkən, ədəbiyyatşünas C.Yusiflinin aşağıdakı mülahizələrini xatırlatmaq məqsədə müvafiqdir: "Səməd Vurğuna həsr etdiyi və "Ölüm, şöhrətinmi azalardı de" misrası ilə başlayan şeirdə ölümə, gərdişə, onun min dürlü, cilvəli hərəkətlərinə Səməd Vurğun münasibəti və möhrü var! Səməd Vurğuna həsr edilən başqa bir şeirdə Səməd Vurğun şeir deyərkən təsvir edilir, bu şeirdə Əli Kərim Səməd Vurğunun obrazını var gücü ilə, məhz Səməd Vurğun kimi yaratmağa çalışır…" [5, s.47]. Amma gənc şairin inamı dərindir; bu ölüm Səməd Vurğunun məğlubiyyəti sayıla bilməz. Həyatı vəsf edən və ömür boyu həyatın təntənəsi üçün qələm çalan şair yox ola bilməz. Səməd Vurğunun hər şeiri ölümü öldürməyə yönəldiyi üçün onun özü də ölməzdir. Bir də ki, ulu ustad onun adı və sözünün eşqi ilə əlinə qələm alan,

sənət aləminə qədəm qoyan hər bir şairin əməlində, ömründə, sözündə yenidən diriləcək və könüllərdə yaşayacaqdır: “Gedir, şair gedir, sənətkar gedir, Bu gedən hər gedib gələndən deyil. Ölüm, sevinmə çox, bu sevinc nədi?! Bu ölən, sənə hər ölәndən deyil. O yazdı, yaratdı həyat naminə, Onun hər bir şeiri ölümdür sənə!” [1, s.251].

Azərbaycan poeziyasının, xüsusən, xalq şeirinin mahiyyətini və ab-havasını dərindən bilən görkəmli şairimiz Tofiq Bayramın bir çox əsərlərində, xüsusən, M.Ə.Sabirə, Məhəmməd Hadiyə, Hüseyn Cavidə, Cəfər Cabbarlıya, Əhməd Cavada, Mikayıl Müşfiqə, Səməd Vurğuna və Rəsul Rzaya həsr etdiyi şeirlərində yeni sənət və sənətkar kompleksinin səciyyəvi cəhətləri parlaq şəkildə təzahür etdiyini görürük. Təcrübəli və əzabkeş şairin “Şair haqqında düşüncələr” (1962) şeiri bu cəhətdən səciyyəvidir. Tofiq Bayram sanki ürəkdən sevdiyi ən məşhur Azərbaycan klassiklərinin həyat və yaradıcılıq yolunu bu gözəl və cəsarətli şeirində ümumiləşdirməyə can atmışdır. Əslində “Şair haqqında düşüncələr”in 60-cı illərin lap əvvəllərində yazılması və xalq içində yayılması da müəllifinin özünəməxsus bir ədəbi qəhrəmanlığı idi:

*Hər ürək bu yola gətirməyib tab,*
*Şairlik nə bəylik, nə sultanlıqdır.*
*Şairlik ən böyük əziyyət, əzab,*
*Şairlik ən böyük qəhrəmanlıqdır.*

*Bağrı gecə-gündüz yanan bir məşəl,*
*Onuntək yanmazsan nə qədər yansan,*
*Bəlkə şair imiş hər kəsdən əvvəl,*
*İlk dəfə ürəyi ağrıyan insan.*

*Şair öz sözüylə, öz qüdrətiylə,*
*Ömrünü verməli Vətənə, yurda.*
*Tonqalda hamını hərarətiylə,*
*İsidib, kül olur özü axırda.* [4, s.43]

“Şair haqqında düşüncələr”in yazıldığı vaxtda özü də hələ çox cavan olan müəllif böyük sənətin missiyası və mahiyyətini yaxşı bildiyini məharətlə nümayiş etdirir. Milli söz sənətimizin keçdiyi yolu, sinə gərdiyi misilsiz çətinlikləri və bu yolda verdiyi qurbanları gənc şair son dərəcə aydın təsəvvür edir. Gənc sənətkar Azərbaycan xalqının dərdli və əzabkeş xalqlardan biri olduğunu bütün varlığı ilə duyur, bu ölkədə əsl sənətkar olmaq üçün doğma yurdun müsibət və iztirablarını cəsarətlə tərənnüm etməzdən, yazmazdan yaşamağın və yaratmağın mümkünsüzlüyünü də dərindən anlayır:

*Danışsın vətəndaş, böyük şairlər,*
*Kəlmələr alovdan, oddan yoğrulsun.*
*Hər şair bir xalqın rəhbəri qədər,*
*Milyon talelərə cavabdeh olsun.*

*Şairdə ildirım gücü var bəlkə,*
*Şeir daşdan keçən qurşun kimidir.*
*Nəğməsiz bir millət, şairsiz ölkə,*
*Sərkərdəsiz qalan qoşun kimidir.* [4, s.44]

Tofiq Bayramın erkən yaradıcılığındakı yeni sənət və sənətkar konsepsiyasını formalaşdırmaq meyilləri X.R.Ulutürkün 60-70-ci illərdəki poetik axtarışlarında da qabarıq surətdə nəzərə çarpır. X.R.Ulutürk də şairliyin qəhrəmanlıqla birliyini və əkiz əxlaqi-mənəvi keyfiyyətlər olduğunu və həmişə qoşa təzahür etməsini vurğulayarkən məhz yuxarıda vurğuladığımız tarixi həqiqətləri nəzərdə tuturdu. Eyni zamanda, bütün varlığı təpədən-dırnağa qədər Vətən eşqi ilə yoğrulmuş sənətkar qəhrəmanlıq və şairliyin bir-birini tamamlamasının təkcə keçmişə aid bir ictimai-estetik fəzilət olmasını deyil, bu gün də həyati və yaşarı xüsusiyyətlər olduğunu öz həyatı və yaradıcılıq fəaliyyəti misalında nümayiş etdirmək istəyirdi. Yuxarıda söylədiklərimizə uzaq və yaxın tariximizdən kifayət qədər misallar tapmaq olar. Xəlil Rza Ulutürkün “Şairlik – qəhrəmanlıqdır” konsepsiyasını dialektik tarixi ardıcıllıqla və ilhamla tərənnüm etdiyinə əminlik hasil etmək üçün onun ən məşhur şeirlərini nəzərdən keçirmək kifayətdir.

Gənc şairin yalnız yaxın keçmişimizdən deyil, qədim və uzaq tariximizdən gətirdiyi misallar, poetik müqayisələr də onun bu yöndəki görüşlərinin nə qədər doğru-düzgün və həyati əhəmiyyətə malik olduğunu nümayiş etdirməkdədir. Xəlil Rza Ulutürkün və yaxın ədəbi müasirlərinin, o cümlədən Bəxtiyar Vahabzadənin, Qabilin, Hüseyn Arifin, Əliağa Kürçaylının, Nəbi Xəzrinin, Əli Kərimin, Məmməd Arazın, Nəriman Həsənzadənin, Hüseyn Kürdoğlunun, Cabir Novruzun, Fikrət Sadığın, Musa Yaqubun, Sabir Rüstəmxanlının və başqa görkəmli sənətkarlarımızın öz yaradıcılığında uğurla yaratdıqları Atilla,

Babək, Cavanşir, Koroğlu, Dədə Qorqud, Nizami, Nəsimi, Xətayi, Vaqif, M.Ə.Sabir, Mirzə Cəlil, H.Cavid, M.Hadi və başqa obarazlarda, onların tarixi kontekstdəki bədii təhlili və tərənnümündə biz yuxarıda vurğuladığımız mənəvi-estetik xülasə və qənaətlərin təsdiqini müşahidə edirik. Bu cəhətdən görkəmli şairin "Cahana sığmayan şair" (1973) şeiri çox səciyyəvidir. Hələ 50-ci illərdə yazılmış və qardaş tatar xalqının qəhrəman şairi Musa Cəlilə həsr olunmuş şeirlə "Cahana sığmayan şair"in estetik məndəricəsi arasında güclü həmahənglik olduğu elə ilk baxışdan nəzərə çarpır. Zatən, Seyid İmaddədin Nəsiminin qanlı taleyi də sıldırım üstündə dayanan palıdın – Musa Cəlilin qismətindən heç nə ilə fərqlənmir:

*Bayramındır bu gün sənin, gözün aydın, ulu şair!*
*Ellər gəlib bayramına, dünya sənə alqış deyir.*
*Bugün dünya göz dikibdir Azərbaycan bayrağına,*
*Bir bayraq ki, ağac qulpu Nəsiminin qələmidir.*
[2, s.98]

Həqiqətən biz, xüsusən yaşlı nəsillər 1973-cü ili, ümumən, 70-ci illəri çox böyük məhəbbətlə xatırlayırıq. Azərbaycan xalqının milli yüksəliş və intibah dövrü kimi şanlı tariximizə çevrilən həmin illər hər bir azərbaycanlının qəlbini qürur və iftixar duyğuları ilə doldurmaqdadır. Mənəvi, mədəni, iqtisadi və siyasi qələbələrlə, müvəffəqiyyət və uğurlarla, ümummilli və ümumdünya miqyaslı ədəbi-ictimai tədbirlər və bayramlarla zəngin olan həmin dövrü yəqin ki gələcək tarixçilər dərindən təhlil edəcəklər. Ümummilli liderimiz Heydər Əliyevin bilavasitə müəllifi və yaradıcısı olduğu həmin epoxanın bir çox hadisələrini isə, demək olar ki, heç zaman yaddan çıxarmaq mümkün deyil. Ulu Nizaminin 840 illik yubileyi, böyük Xalq şairi Səməd Vurğunun 70 illik yubileyi, o cümlədən, dahi Nəsiminin anadan olmasının 600 illik yubiley tədbirlərinin nəinki ümummilli, hətta ümumdünya bayramları səviyyəsində keçirilməsi, ümumən, təkcə Azərbaycanda deyil, bütün Sovet İttifaqı miqyasında birinci (və bəlkə də sonuncu) və təkrarsız mədəni-siyasi tədbirlər idi. Xəlil Rza Ulutürkü də vəcdə gətirən məhz bu hadisələrin misilsizliyi, həm də Azərbaycan qüdrətinin və əzəmətinin böyük əzabkeş şairin adında, yad edilməsində təcəssüm etməsi idi: "Sığmır bugün Azərbaycan öz həddinə, hüduduna, Uzaq Hələb şəhərindən şölə düşüb buluduna. Beş qitədən əklil gəlir bir şairin məzarına, Beş qarışlıq kiçik məzar dönür cahan gülzarına" [2, s.98]. Xəlil Rza Ulutürk Nəsiminin təkcə şairliyini, onun yüzillikləri şölələndirən misilsiz idrakını və zəkasını deyil, eyni zamanda mənəvi qüdrətini və cəsarətini, səbatını və mətinliyini də tərənnüm edir. Zira Nəsiminin mübarizəsi və taleyi yalnız poetik təfəkkürün və istedadın yox, həm də şəxsiyyətin və cəsarətin zirvəsidir: "Hanı ağzı köpüklənən ağ çalmalı üləmalar? Sümüyü də sürmə olmuş... bu gün ondan nişanmı var? Sürü-sürü o vaizlər, o qazilər hanı, hanı? Bugün dünya görür ancaq yaradanı, yaşadanı!" [2, s.99].

Ümumən, Nəsimi obarazını yaradarkən Xəlil Rza Ulutürkün məsələnin mahiyyətinə vardığını və ustad şairin tarixi fəaliyyətini canlandırarkən zaman həqiqətlərini hərtərəfli əks etdirməyə çalışdığını ayrıca qeyd etmək gərəkdir. Zatən, Seyid İmadəddin Nəsiminin hürufi bir şair kimi yaradıcılığını və nəinki Azərbaycan tarixində, ümumən, Şərq və dünya tarixində çox nadir hallarda təkrarlana biləcək taleyini müəllif obyektiv dəyərləndirir. Və şeirdə "zəka igidliyi, söz igidliyi"nin misilsizliyi xüsusi vurğulanır. Daha doğrusu, Nəsimi timsalında söz və qılınc qəhrəmanlığının, şairlik və igidliyin ideal bir səviyyədə birləşdiyini tərənnüm edir: "Biləklərim Kürlə Araz, gözüm – Göygöl, Xəzər mənim. Zindanlara düşsəm belə zirvələrdə yaşar qəlbim! Assanız da, kəssəniz də sönən deyil gözümdə şam, Mən ədalət qılıncının şöləsindən yaranmışam" [2, s.99].

"Şairlik – qəhrəmanlıqdır" əqidəsinin parlaq bir rəmzi və təsdiqi kimi milli tariximizdən Nəsiminin seçilməsi həqiqətən də qanunauyğun və məqsədəuyğundur. Çünki dünyada böyük söz və yaradıcılıq sahibi olan sənətkarlar az deyil. Amma öz sözü, yazdıqları və yaratdıqları üçün öz qanı və canı ilə cavab verməyə hazır olanlar isə, etiraf edək ki, çox azdır. Azərbaycan xalqı dünya və bəşər tarixində son dərəcə nadir və misilsiz bir insanı yetişdirə bildiyinə və dünyaya bəxş etdiyinə görə qürur

duymalıdır. Biz səmim-qəlbdən fəxr edirik ki, bütün dünyanı heyrətləndirən bir insanın və sənətkarın, dahi şairin və misilsiz qəhrəmanın övladlarıyıq. Müəllifin özünün və Nəsiminin dilindən söylədiyi aşağıdakı misralar düşüncələrimizi tam şəkildə təsdiq edir: "Unutdurmaq istəyirlər onlar mənə kimliyimi, Dünən Babək özü geydi mənim qanlı köynəyimi. Mən dünənəm. Mən bugünəm. Mən keçmişəm, gələcəyəm. Ölsəm belə bu dünyaya Mən yenidən gələcəyəm" [2, s.99]. Bu şeirdə Xəlil Rza Ulutürkün "Şairlik – qəhrəmanlıqdır" kredosunu poetik təhlil və tərənnüm edərkən gəldiyi bir çox nəticə və qənaətləri yuxarıda qismən nəzərdən keçirdik. Amma şeirdəki iki beyt xüsusi yanaşmanı tələb edir. Şeirin sonluğu olan bu beytlərdən biri belədir:

*Çoxlarını məhv elədi, bu qovğalı, qallı dünya,*
*Sultanlara qalmadı, yox, Nəsimiyə qaldı dünya.*
[2, s.99]

Bu misralardan belə nəticə çıxarmaq olar ki, sonda dünyanın sahibi Nəsimi və ya ona bənzəmək istəyən insanlardır. Yəni, şairlik və qəhrəmanlığın sintezi, onların vəhdətindən təkcə müəyyən Vətən və millət üçün deyil, ümumən, insanlıq üçün ən zəruri və ideal şəxsiyyətlər doğulur. Seyid İmadəddin Nəsiminin bir insan və sənətkar kimi fövqəlmahiyyətinin məğzində məhz bu birlik dayanır. Həqiqətə sədaqətin, insan kimi özünü dərindən dərk etmək və eyni zamanda bunların başqaları tərəfindən də etiraf edilməsinə can atmaq şair və qəhrəmanlığın vəhdəti olmadan qətiyyən mümkün deyil. Təkcə, "Məndə sığar iki cahan, mən bu cahana sığmazam, Gövhəri-laməkan mənəm, kövnü məkana sığmazam" həqiqətini dərk etmək deyil, eyni zamanda bu böyük həqiqətin zamandaşlar tətərfindən səmim-qəlbdən etirafına nail olmaq üçün də şair qəhrəman olmalıdır. Daha doğrusu, şair də, insan da öz mahiyyətini və təfəkkürü hüdudlarını genişləndirib, ali insana çevrilməli, ilahiləşməli, tanrılaşmalıdır:

*Bizim qaynar qanımızda gizli çaylar aşıb-daşır,*
*İnsan kimi yaşayanda insan özü tanrılaşır!*
[2, s.99]

X.R.Ulutürkün və 60-70-ci illər bədii prosesinin ən qiymətli bədii-fəlsəfi kəşflərindən hesab olunan "Şairlik – qəhrəmanlıqdır" ideyasından doğulan bütün ciddi poetik nümunələri bir araşdırma müstəvisində təhlil edib ümumiləşdirmək, təbii ki, mümkün deyil. Amma həmin özünəməxsus estetik epoxada yaranmış bir sıra qiymətli bədii əsərlər, o cümlədən Xəlil Rza Ulutürkün yuxarıda nəzərdən keçirdiyimiz şeirləri, Bəxtiyar Vahabzadə, Qabil, Nəbi Xəzri, Əliağa Kürçaylı, Əli Kərim, Məmməd Araz, Fikrət Sadıq, Nəriman Həsənzadə, Cabir Novruz, Musa Yaqub, Fikrət Qoca, Sabir Rüstəmxanlı və bir çox başqa şairlərimizin bu mövzudakı müxtəlif janrlarda yaratdığı poetik nümunələr və silsilələr XX yüzil poeziyamızın qızıl fondunda yer aldı.

X.R.Ulutürkün öz əsərlərini çap etdirməyə başladığı 50-ci illərin əvvəllərindən başlayaraq həyata əbədi olaraq gözlərini yumduğu 1994-cü ilin iyununa qədər qələmə aldığı əksər poetik nümunələri nəzərdən keçirərkən mövzuya, öz poetik idealına, böyük sənətkar manerasına, vətənpərvər və xalqpərvər şair üslubuna ardıcıl və inadcıl bağlılığın, heyrətamiz bir sadiqliyin rəngbərəng, bir-birindən orijinal və müəzzəm mənzərələri ilə üz-üzə gəlirik: "Məqəddəs yol", "Şərqin gözləri", "Sıldırım üstündə dayanan palıd", "Qandallanmış qandallar", "Buz içində od", "Vətən", "Laylam mənim, nərəm mənim", "Tufanlarla güləşənlər", "Bir odlu gözləri, bir də xoş səsi", "Əyilmə", "Meyar", "Mənim şeirim", "Vətən ya ölüm", "Xiyabani yurdunda", "Böyük sənətkar", "Tamam doğmayan günəş", "Şəlalə kimi", "Oğlum Təbrizə", "Həyat düşüncələri", "Mənim tələbələrim", "Saz", "Oğullar gərəkdir Azərbaycana", "Qobustan qayaları", "Sən mənim vüqarımsan", "Dağlara qalxıram", "Ən böyük səadət", "Mən Şərqəm", "Sən ey söz günəşi Azərbaycanın", "Şair neft daşlarında", "Səttar Bəhlulzadəyə"...

Beləliklə, bu şeirdə lirik qəhrəmanla tarixi qəhrəman arasındakı sərhədlər sanki silinir və müəllifin özü xalqın təmsilçisi, onun iradəsinin ifadəçisi kimi çıxış edir. Bütün ictimai-siyasi hərəkət və mübarizələrin qəti şəkildə qadağan olunduğu 20-30-40 və 50-ci illərdə milli idealı açıq şəkildə səsləndirmək heç kimi ağlına belə gəlməzdi. 60-70-ci illərin mövcud ictimai-

siyasi reallığında və ədəbi mühitində isə zamanın və cəmiyyətinn qəhrəmanı yalnız qələm əhli, şair ola bilər. Yəni qəhrəmanlıq fəqət kağız üzərində yarana, kitab səhifələri arasında yaşaya bilərdi. Zəmanəmizin qəhrəmanı – şairdir! Bu Xəlil Rza Ulutürkün və zamandaşlarının həmin dövrdə gəldiyi sərt və son həqiqət idi. Məhz buna görə də "Şair – milli qəhrəman" konsepsiyası onun yaradıcılığında geniş və hərtərəfli şəkildə öz əksini tapıb. Altmışıncıların ilk lirikasında doğulub dərinləşməyə başlayan bu qayə onların yaradıcılığının yetkinlik dövrünə qədər davam etdi. Yeri gəlmişkən, onu da xüsusi vurğulamağa dəyər ki, Azərbaycan altmışıncılarının yaradıcılığındakı bu meyillər həmin dövr qardaş qazax və özbək şairlərinin bədii axtarışlarında da özünü büruzə vermişdir [3, s.25-35].

## Nəticə / *Conclusion*

80-ci illərin ikinci yarısından etibarən yaranıb inkişaf etməyə başlayan yeni meyillər bir çox ictimai-siyasi doqma və kanonları, bədii-fəlsəfi qəlib və konsepsiyaları vurub dağıtdı. Uzun zaman milli-fəlsəfi təfəkkürdə kök salmış "şair-qəhrəman" formulu da ciddi dəyişikliyə uğradı. "Şair-qəhrəman" ideyasından yeni zamanın tələb etdiyi yeni qəhrəmanlar doğulub meydanlara axışdı. Zatən, şairlərin özləri də potensial qəhrəmanlardan real, hərəkətdəki qəhrəmanlara, döyüşçülərə, qazilərə və şəhidlərə çevrildilər...

## Ədəbiyyat / *References*

1. Əli Kərim. Seçilmiş əsərləri. İki cilddə, I cild. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1974.
2. Xəlil Rza Ulutürk. Seçilmiş əsərləri. İki cilddə, I cild. – Bakı: Şərq-Qərb, 2005.
3. Qasımbəyli, Yaşar. Milli oyanış və özünəqayıdış lirikası. – Bakı: Elm və təhsil, 2012.
4. Tofiq Bayram. Seçilmiş əsərləri. – Bakı: Lider-Nəşriyyat, 2005.
5. Yusifli, Cavanşir. Azərbaycan poeziyasında Əli Kərim mərhələsi. – Bakı: Adiloğlu, 2005.

## Старый «новый» этнопоэтический комплекс: поэзия и героизм

**Яшар Гасымбейли**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: yashargasimov@mail.ru

**Резюме.** В статье говорится о серьёзном идейно-эстетическом обновлении, происходившем в азербайджанской поэзии 60–70-х годов прошлого века. Молодых художников пера, впервые вступивших на литературную арену, серьёзно волновал вопрос: каким быть художнику в области новых общественно-политических и художественно-эстетических взаимоотношений и в то же время сущность качественно значительно изменившихся и обновлённых взаимоотношений власть – искусство, а также народа и искусства. В раннем творчестве ведущих в поэтическом процессе данного периода Б.Вахабзаде, А.Керима, М.Араза, Х.Р.Улутурка, Т.Байрама, Ф.Годжа и других отчётливо наблюдается ярко выраженное стремление к формированию новой эстетической позиции. В статье говорится о проведённом анализе включенных в центр исследования стихотворений молодых художников пера, направлении и содержании художественно-эстетических поисков. В особенности в стихотворениях А.Керима о Самеде Вургуне и Узеире Гаджибекове, рассмотрении Т.Байрамом в сопоставительном аспекте знаменитых произведений азербайджанских поэтов-классиков и Х.Р.Улутурка об общественно-художественной героической решительности великого Сеид Имададдина Насими, обобщены поэтические открытия молодых шестидесятников в этой области.
**Ключевые слова:** концепция шестидесятников «новое искусство и художник», А.Керим, М.Араз, Х.Р.Улутурк, Т.Байрам, Ф.Годжа